***Azərbaycan Ordusunun* hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan iqtisadiyyatının sürətli inkişafı nəticəsində ölkəmizin hərbi qüdrətinin artırılması və ordu quruculuğu tədbirləri uğurla davam etdirilir.

Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsinə imkan vermişdir.

Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərlə yanaşı, *Azərbaycan Ordusunda* xidmət edən hərbi qulluqçuların əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi onların ailə üzvlərinin də sosial müdafiəsinin gücləndirilməsinə, mənzil-məişət problemlərinin həll edilməsinə təkan vermişdir.[2]

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. *Azərbaycan Ordusunun* 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuları dövlət vəsaiti hesabına mənzillə təmin edilsinlər.

2. Bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq dövlət vəsaiti hesabına mənzillərlə təmin olunan hərbi qulluqçuların siyahısını hazırlamaq, tələb olunan mənzillərin sayını və bölgüsünü müəyyən etmək məqsədi ilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

***Komissiyanın sədri***[3]

*Azərbaycan Respublikasının maliyyə naziri*

***Komissiyanın üzvləri:***

*Azərbaycan Respublikası müdafiə nazirinin müavini*

*Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini*

*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti rəisinin müavini*

*Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsi müdirinin müavini.*

3. Komissiyaya tapşırılsın ki:

3.1. siyahının hazırlanması zamanı hərbi qulluqçuların qüsursuz hərbi xidmət müddətini, döyüş əməliyyatlarında iştirakını, hərbi rütbəsini, tutduğu vəzifənin xüsusiyyətlərini, ailə üzvlərinin sayını, yaşayış şəraitini nəzərə alsın;

3.2. hazırlanmış siyahını Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.3. görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

*3-1. Müəyyən edilsin ki, bu Fərmanın məqsədləri üçün "qüsursuz xidmət" müddəti dedikdə, bu Fərmanın 3-2-ci hissəsində nəzərdə tutulan müddət istisna olmaqla, hərbi qulluqçuların həqiqi hərbi xidmət müddəti nəzərdə tutulur.*

*3-2. Aşağıdakı müddətlər hərbi qulluqçunun qüsursuz hərbi xidmət müddətinə daxil edilmir:*

*3-2.1. hərbi rütbəni aşağı salma intizam tənbehinin daha əvvəl hərbi qulluqçunun üzərindən götürülməsi halları istisna olmaqla, həmin intizam tənbehi tətbiq edildiyi gündən bir il müddəti;*

*3-2.2. hərbi xidmət əleyhinə olan inzibati xəta törədilməsinə görə çıxarılmış inzibati tənbeh vermə haqqında qərarın icrasını bitirdiyi gündən bir il müddəti;*

*3-2.3. məhkumluğun olduğu müddət.*

*3-3. Azərbaycan Ordusunun 20 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçusu bu Fərmanın 3-2-ci hissəsində nəzərdə tutulmuş müddətlərdə bu Fərmana uyğun olaraq dövlət vəsaiti hesabına mənzillə təmin edilə bilməz.*[4]

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi *Komissiyanın katibliyi funksiyalarını həyata keçirsin və* bu Fərmanın icrası ilə bağlı maliyyələşməni mərhələlərlə müəyyən olunmuş qaydada təmin etsin.[5]

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2011-ci il

№ 569

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 15 noyabr 2021-ci il tarixli **1476** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2021-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1214)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 noyabr 2021-ci il tarixli **1476** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2021-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1214)** ilə Fərmanın adında və 1-ci hissəsində "**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin**" sözləri "**Azərbaycan Ordusunun**" sözləri ilə əvəz edilmişdir.

[2] 15 noyabr 2021-ci il tarixli **1476** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2021-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1214)** ilə preambulanın üçüncü abzasında "**silahlı qüvvələrdə**" sözləri "**Azərbaycan Ordusunda**" sözləri ilə əvəz edilmişdir.

[3] 15 noyabr 2021-ci il tarixli **1476** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2021-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1214)** ilə 2-ci hissənin ikinci – səkkizinci abzasları yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın sədri:**~~

~~Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri~~

~~**Komissiyanın üzvləri:**~~

~~Çingiz Məmmədov - Azərbaycan Respublikası müdafiə nazirinin müavini~~

~~Rafiq Cəlilov - Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini~~

~~Rauf Pənahov - Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini~~

~~Ramiz Tahirov - Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi~~

[4] 15 noyabr 2021-ci il tarixli **1476** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2021-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1214)** ilə yeni məzmunda 3-1-ci, 3-2-ci və 3-3-cü hissələr əlavə edilmişdir.

[5] 15 noyabr 2021-ci il tarixli **1476** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2021-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1214)** ilə 4-cü hissədə "**Maliyyə**

**Nazirliyi**” sözlərindən sonra “**Komissiyanın katibliyi funksiyalarını həyata keçirsin və**” sözləri əlavə edilmişdir.

Qüvvədədir

**Məcəllələr**

© 2024 | e-qanun.az | Bütün Haqqlar QorunurƏdliyyə Nazirliyinin İnformasiya - kommunikasiya Texnologiyaları İdarəsi CROCUSOFT

E-QANUN